# QARANLIĞA DÜŞƏN İŞIQ

## Cümhuriyyət qurucuları Rəhman Salmanlı yaradıcılığında

**Tələbəlik illərindən Rəhman Salmanlını bizdən fərqləndirən bir neçə cəhət vardı. Bu cəhətlərdən biri də onun istedadı və zəhmətkeşliyi idi. Rəhman hələ tələbəlik dövründə teztez arxivlərə gedir, axtarışlar aparır və çox şeyi də bizə bildirməzdi. Biz onda müəyyən şeyləri bildik ki, artıq tələbə dostumuz Rəhman Salmanlı cümhuriyyət dövrünün ziyalılarının, şairlərinin və inqilabçılarının üzərinə salınmış qaranlığa işıq tutub. Sonradan zaman-zaman onun araya-ərsəyə gətirdiyi tarixi sənədli oçerklər işıq üzü gördü. Cümhuriyyət şairi kimi tanınan böyük Əhməd Cavadın həyat və yaradıcılığını araşdırdı. Bu araşdırmalarla yanaşı, o dövrün istiqlalçıları ilə yaxından oxucuları tanış etdi.**

Tədqiqatçı-jurnalist arxivlərdə işlədikcə bu tanışlığın coğrafiyası daha da genişləndi. Və onun cümhuriyyət qurucularından bəhs edən tarixi oçerkləri kitaba çevrildi. "Ramazan oğulları", "Cümhuriyyət şairi", "Gizli güllələnən alim" kitabları bax, belə nümunələrdəndir. Rəhman bu kitabları araya-ərsəyə gətirənə qədər çox axtarışlar aparıb, çox əziyyətlər çəkib və axırda da istəyinə nail olub. Yəni Azərbaycan oxucusu bir vaxtlar Şura hökuməti tərəfindən ölkənin müstəqilliyini, bütövlüyünü qoruduğuna görə, hər cür şər-böhtan atılan, zindanlara salınan, sonra da günahsız yerə güllələnən böyük ziyalılarını Rəhman Salmanlı kimi tədqiqatçı-jurnalistlərin arxivlərdə uzun illər axtarışından sonra tanıdı. Azərbaycan oxucusu tanıdı ki, Hüseyn Cavidlər, Əhməd Cavadlar, Mikayıl Müşfiqlər "Azərbaycan" deyə-deyə günahsız yerə güllələniblər.

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" prezident İlham Əliyev 16 may 2017-ci ildə sərəncam imzalayıb. Həmin sərəncamda deyilir: "... Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tariximədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı... "

Bəli, həqiqətən də bu gün cümhuriyyət dövrünün əsasını qoyan ziyalılar, siyasətçilər və inqilabçılar ölkəmizdə böyük sevgiylə qarşılanır. Çünki xalq gec-tez əsl həqiqəti bildi. Rəhman Salmanlının bu günlərdə çapdan çıxmış "İstiqlal mücahidləri" kitabı da məhz belə bir tarixi arxiv sənədləri əsasında qələmə alınmış yaddaqalan bir kitabdır. Kitabın redaktoru "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin üzvü Bəxtiyar Sadıqovdur. Elmi məsləhətçi isə AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimlidir.

Əvvəlki kitabların elə bu kitab da davamı sayıla bilər. Çünki Rəhman Salmanlı 40 il bundan əvvəl tarixin qaranlıq səhifələrinə tutduğu işığı bu gün də davam etdirib və nəticədə belə bir maraqlı, orijinal və arxiv sənədləri əsasında dəyərli kitab ortaya qoyub.

Kitabın ilk səhifəsində "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı dərc edilib. Kitabı vərəqlədikcə bir-birindən maraqlı və tarixi oçerklərlə üzləşirsən. Həmin oçerklərin dil və üslubu, yazı manerası, orijinal yanaşma tərzi məni bir tələbə dostu olaraq çox sevindirir. Hər yazıdan, hər oçerkdən hiss edirsən ki, Rəhmanın qələmi daha da püxtələşib, düşüncə və təfəkkür tərzi elmi əsaslara, tarixi arxivlərə söykənərək məntiqi nəticə çıxarır.

Kitabdakı "Cümhuriyyət zabiti", "Azadlıq mübarizəsi", "Abbasqulu bəy Şadlinski", "Amur-Dərya sahillərində öldürülən azərbaycanlı", "Millət təəssübkeşi", "Qazanpapaq Məhəmməd", "Milli Ordu qurucularının fəalı", "İki dəfə ölüm düşərgəsinə sürgünə göndərilən ziyalı", "Mühacir yazar", "Cümhuriyyət şairi", "Cahangir Ağazadəni Bakıda güllələdilər", "Müşfiq ucalığı", "Unudulmaz Xəlil İbrahim", "Sürgün adıyla Bakıda güllələndi", "Ölüm kamerasında "ürəyi dayanan şair"", "İnam bəslədiyi rejimin qurbanı",




"Əksinqilabçı şair"... və digər arxiv sənədləri əsasında qələmə alınan oçerklər sözün həqiqi mənasında bir tarixi yaddaş, bir tarixi həqiqətdir. O tarixi həqiqət ki, onları sovet hökuməti xalq düşməni elan edib və güllələyib. Rəhmanın qələmə aldığı tarixi şəxslər gün işığı kimidir.

O gün işığının qarşısını qara buludlar nə vaxt alsa da, amma bu gün işığı o buludun arxasından çıxır və dünyanı öz nuruna bələyir. Əhməd Cavad nur işığıdı, Mikayıl Müşfiq nur işığıdı, Cavad Axundov nur işığıdı, Vəli Xuluflu gün işığıdı, Hacıbala Cəbiyev nur işığıdı, Abbasqulu bəy Şadlinski nur işığıdı, Yusif Ziya Talıbzadə nur işığıdı, Qazanpapaq Məhəmməd (Məhəmməd Məmmədhüseyn oğlu) nur işığıdı, Hüsaməddin Tuğac nur işığıdı... Bu gün işıqlarını zindanlara atıblar, güllələyiblər... Ancaq onların ideyasını, düşüncəsini və vətən sevgisini məhv edə bilməyiblər. Elə Rəhman Salmanlı da bu işığı, bu nuru, bu mübarizəni böyük oxucuya çatdırır və onu düşündürür.

Kitabda "Millət təəssübkeşi Qazanpapaq Məhəmməd" sərlövhəli çox maraqlı bir oçerk diqqətimizi cəlb etdi. O Qazanpapaq Məhəmməd ki, ermənilərə qarşı döyüşür və heç vaxt ölümdən, güllədən qorxmur. Gülləni onun alnına sıxsan belə heç vaxt dediyindən dönən deyil. Belə bir qeyrətli igidi, qoçaq insanı həyat sınağa çəkir. Günlərin bir günü Nuru Paşa Azərbaycana gələndə Qazanpapaqla rastlaşır. Kitabda həmin səhnə belə təsvir edilir: "... Bu yığıncaqlarda Qazanpapaq oğlu Məhəmməd də iştirak edirdi. O, bəylərin, dəstəbaşların oturduğu yerdə əlini qaldıraraq söz alır: "Mən sizinlə razıyam. 115-ə yaxın adamla Bərdə, Ağdam, Tərtər rayonları ərazisində bu işləri öz üzərimə götürürəm...

Nuru Paşa çönüb yanında əyləşən Qarxunlu Əşrəf bəyə:

- Yaman ötkəm danışır - deyib, onun kimliyi ilə maraqlanır.

- Qazanpapaq oğlu Məhəmməddir, özü də çox mərddir..."

Qazanpapaq oğlu Məhəmməd həm ermənilərə qarşı döyüşür, həm bolşeviklərlə vuruşur, həm də haqsızlıq eyləyən qaçaqların qarşısına çıxır. Hətta o, bir dəfə Bərdədə Mircəfər Bağırovu ölümdən xilas edir və Şura hökuməti ondan çox istifadə edir. Yəni çox qaçaqlarla danışığa gedir, kənd camaatını qırğından, ölümdən xilas edir. Axırda da elə Mircəfər Bağırovun qurbanı olur. Yəni əməliyyatların birində onu ruslardan və ermənilərdən ibarət olan bolşeviklər güllələyirlər. Milli qüruru, Vətən sevgisiylə Qazanpapaq oğlu Məhəmməd Azərbaycan tarixinə öz şanlı adını yazmağı bacarır.

**Rəhman Salmanlının "İstiqlal mücahidləri" kitabını vərəqlədikcə bir daha biz həmin tarixi günlərə qayıdır, hansı haqsızlıqların, ədalətsizliklərin olduğunu görürük. Kimisə qətlə yetirmək olar, kimisə zindana atmaq mümkündür. Ancaq azadlıq ideyalarını və müstəqilliyi heç vaxt öldürmək, güllələmək mümkün deyil. Bu mənada filologiya üzrə fəlsəfə doktoru Rəhman Salmanlının tarixi sənədlər əsasında qələmə aldığı bu kitabı çox qaranlıqların üstünə işıq salıb və çox həqiqətləri də bu xalqa, bu millətə çatdırıb. Buna görə bir daha istedadlı tələbə dostum Rəhmana bir yağlı "beş" düşür...**

**Faiq QİSMƏTOĞLU**